

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 90 (23.502)

12 iyun 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 11-də Bakı şəhərinin Xətai rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kilovoltluq "Əhmədli" yarımstansiyasının açılışında iştirak edib.

Dövlətimizin başçısı "Əhmədli" yarımstansiyasını işə salıb.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verərək bildirib ki, müasir avadanlıq və qurğuların quraşdırılması yarımstansiyanın səmərəliliyini və gücünü artırıb. Burada 3 köhnə transformatorun daha yeni transformatorlarla əvəzlənməsi yarımstansiyanın ümumi gücünü 166 mVA-dan 240 mVA-ya çatdırıb.

Prezident İlham Əliyev son illər ərzində energetika sahəsində çox böyük işlərin görüldüyünü, həm generasiya güclərinin artdığını, həm də itirilmiş güclərin bərpa edildiyini, yaxın zamanlarda Mingəçevirdəki İstilik Elektrik Stansiyasının da yenidənqurmadan sonra açılışının olacağını bildirib. Ölkə başçısı bu gün enerji təminatı ilə dayanıqlılıq əmsalına görə Azərbaycanın dünya miqyasında ikinci yerdə olduğunu, elektrik təsərrüfatının tamamilə yenilənməsinin və ən yüksək müasir standartlara cavab verməsinin vacibliyini vurğulayaraq görüləsi işlərin çox olduğunu, onların da ardıcıllıqla icra ediləcəyini bildirib.





## "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon filialı bölgənin inkişafına töhfəsini verəcək

### Artıq müştərilər banka yox, bank müştərilərin ünvanınadək gəlir

***Muxtar respublikamızın sosial-iqtisadi inkişafında mühüm rolu olan amillərdən biri də əlverişli bank-maliyyə sisteminin formalaşmasıdır. Ötən dövrdə həyata keçirilən iqtisadi islahatlar bank fəaliyyətinin stimullaşdırılmasına şərait yaratmış, bank sistemində sabitlik və dinamik inkişaf təmin edilmişdir. Regional iqtisadi inkişafın yeni prinsiplər üzərində qurulmasının təminatçısı kimi yaranan "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti də ötən dövrdə böyük inkişaf yolu keçmişdir.***

Real sektorun dəstəklənməsində xüsusi əhəmiyyəti ilə seçilən cəmiyyət istər həyata keçirilən pul-kredit əməliyyatlarında, istərsə də sahibkarlıq institutlarının yaradılması və formalaşmasında mühüm rol oynayıb. Xatırladaq ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti həm də Azərbaycanda yeganə regional bank kimi tanınır.

"Naxçıvanbank" ASC fəaliyyət göstərdiyi dövrdə mühüm uğurlara imza atıb. Əhaliyə, xüsusilə kiçik və orta sahibkarlıqla məşğul olan şəxslərə bank və maliyyə xidmətləri göstərməkdə böyük təcrübə qazanıb. Bank təklif etdiyi məhsul və xidmətləri ilə qısa müddətdə böyük müştəri auditoriyası və məmnuniyyəti qazanıb. Müasir bank xidmətləri göstərə bilməsi üçün "Naxçıvanbank" ASC 2008-ci il avqustun 29-dan Əmanətlərin Sığortalanması Fondunun (ADİF), 2010-cu ildən milli ödəniş sistemi "AZİPS"in, 2011-ci ildən Beynəlxalq Banklararası Ödəniş Sistemi olan SWIFT-in, 2012-ci ildən "MasterCard" beynəlxalq ödəniş sisteminin, 2015-ci ildən "VISA" beynəlxalq ödəniş sisteminin üzvüdür. Bununla yanaşı, bank 2013-cü ildən "MONEX" və 2018-ci ildən "UPT" sürətli pulköçürmə sisteminə qoşulub. Ayrıca 2015-ci ilin may ayından "Naxçıvanbank" ASC beynəlxalq maliyyə bazarları üzrə informasiya xidməti verən ən böyük maliyyə təşkilatı "Bloomberg"in üzvüdür. Bununla yanaşı, bank nağdsız ödənişlərin inkişafı üzrə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən elan edilmiş müsabiqələrdə Azərbaycan bankları arasında "Təmassız POS-terminal infrastrukturu üzrə lider bank" nominasiyasında birinci, "Təmassız ödəniş kartları üzrə lider bank" nominasiyası üzrə isə üçüncü yerə layiq görülmüşdür.

Bu günədək baş ofisi ilə yanaşı, Naxçıvan şəhərində, Şərur, Culfa, Ordubad rayonlarında və Bakı şəhərində filialları fəaliyyət göstərən bankın mayın 27-də Kəngərli rayonunda da yeni filialının açılışı oldu. Açılış mərasimində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir bank fəaliyyət göstərdiyi yerin inkişafına və əhalinin güzəranın yaxşılaşmasına töhfə verməlidir. Bank bu məsələni daim əsas götürməli, fəaliyyətini təhlil etməli, kreditlərin aşağı faiz dərəcəsində olmasına çalışmalı, tələbatı nəzərə almalıdır. Fəaliyyətin bu cür qurulması həm bankın, həm də təsərrüfatların inkişafına imkan verəcəkdir. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin kollektivi əhalinin onlara olan etibarını bundan sonra da qoruyub saxlamalı, ölkəmizin şəffaf fəaliyyət göstərən bankları sırasında öz yerini qorumalıdır. Bankın istifadəyə verilməsi hər bir yerin əsas inkişaf göstəricisidir. Verilən kreditlərin əlçatan olması, əkinçiliyin, maldarlığın və digər təsərrüfat sahələrinin inkişafına yönəldilməsi bankın fəaliyyət istiqaməti olmalıdır. Kəngərli muxtar respublikanın yeni yaranan rayonudur. Rayonda kənd təsərrüfatının inkişafı əsas yer tutur. Digər bir tərəfdən məskunlaşma artır. Ona görə də Kəngərli rayonunda kənd təsərrüfatı və ipoteka kreditlərinin verilməsi diqqətdə saxlanılmalıdır".***

Qeyd edək ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti hazırda 6 filialı və 1 mübadilə şöbəsi, 40 bankomat, 50 ödəniş terminalı, 840 POS-terminaldan ibarət ödəniş infrastrukturuna malikdir. Bankın 1 may 2020-ci il tarixə kredit portfelinin həcmi 103 milyon 146 min manat olmuşdur ki, bunun da 59 milyon 327 min manatını muxtar respublikada kənd təsərrüfatı və real sektorda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə verilmiş kreditlər təşkil edir. Kredit portfelinin böyük bir hissəsinin kiçik və orta sahibkarlıq subyektlərinə yönəldilməsi onun göstəricisidir ki, bank muxtar respublikada özəl sektorun ən böyük dəstəkçisidir. Eyni zamanda verilən kreditlərin, əsasən, kənd təsərrüfatı yönümlü olması aqrar-sənaye məkanı kimi inkişaf edən muxtar respublikamızda müxtəlif aqrar təsərrüfatların yaradılmasına və inkişafına geniş imkanlar açır. Hamımıza məlumdur ki, bu gün muxtar diyarımızda əhalinin 70 faizdən çoxu kəndlərdə yaşayır. Burada da əhalinin ənənəvi məşğuliyyəti heyvandarlıq və əkinçilikdir. Son illərdə aqrar sahəyə mühüm töhfəsi ilə seçilən yeni ailə təsərrüfatlarının yaradılması və ya mövcud olanların fəaliyyətlərinin genişləndirilməsi təsərrüfat sahiblərinin mikrokreditlərə ehtiyacını yaradır ki, bunun da təminatında "Naxçıvanbank" ASC çox böyük rol oynayır. Buradan isə belə bir nəticəyə gəlmək mümkündür ki, adıçəkilən bank kənd təsərrüfatı və real sektorda fəaliyyət göstərən subyektlərin inkişafını daim düşünür və bu sahədə böyük təcrübəyə malikdir. Bank faizlərinin ölkə üzrə ən aşağı dərəcələrlə verilməsi isə "Naxçıvanbank"ın əlverişli kredit bazarı formalaşdırmasına, həmçinin əhali və işgüzar insanlar arasında müsbət imic yaratmasına səbəb olub. Bu mənada, Kəngərli rayonunda bankın yeni filialının açılması da müsbət tərəfləri ilə diqqət çəkir. Hər şeydən əvvəl, Kəngərli rayonu mühüm kənd təsərrüfatı bölgəsidir. Son illərdə rayonda aqrar sahənin inkişafı ilə bağlı dövlət tərəfindən böyük layihələr həyata keçirilib, eyni zamanda bu işlər hazırda da davam etdirilir. Görülən tədbirlər nəticəsində hər il Kəngərli rayonunda yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Nəticədə isə məhsul istehsalı artır, yeni təsərrüfatlar yaranır, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti genişlənir. Bütün bu proseslər isə maliyyə olmadan, dövlət dəstəyi göstərilmədən mümkün deyil. Bu mənada, bankın rayon filialı torpaq mülkiyyətçilərinə, kiçik sahibkarlara yüksək xidmət göstərəcək. Eyni zamanda nəzərə alaq ki, əvvəllər rayon sakinləri banka müraciət üçün Naxçıvan şəhərinə gəlməli idilər və bu da vaxt itkisinə səbəb olurdu. Artıq bundan sonra həmin problemlər yaşanmayacaq. Necə deyərlər, artıq müştərilər banka yox, bank müştərilərin ünvanınadək gəlib. Digər tərəfdən yeni filial təkcə sahibkarlar üçün deyil, sakinlər üçün də müxtəlif maliyyə əməliyyatları aparmaq, pul köçürmələri etmək, elektron ödənişlərdən yararlanmaq və sairdən istifadə etmək imkanı veribdir. Çünki filial binasında yaradılmış hərtərəfli iş şəraiti buna imkan verir.



"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon filialının 28 May – Respublika Günü ərəfəsində istifadəyə verilməsi həm də rəmzi məna daşıyır. Açılış mərasimində Ali Məclis Sədrinin dediyi kimi: ***"Ölkəmizdə Heydər Əliyev siyasətinin davam və inkişaf etdirilməsi müstəqilliyimizi qoruyub saxlamış, bütün sahələrin, eləcə də bank sisteminin inkişafını təmin etmişdir. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti də müstəqillik illərində yaranmış və inkişaf yolu keçmişdir".***

**Səbuhi HƏSƏNOV**

## Ərzaq təminatında qida təhlükəsizliyi vacib şərtdir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası ən müasir avadanlıqlarla yüksəkkeyfiyyətli xidmət göstərir. Qeyd etmək yerinə düşər ki, keyfiyyətə nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə Mərkəzi Qida Sınaq Laboratoriyasının Beynəlxalq Akkreditasiyadan keçirilməsi istiqamətində bütün zəruri tədbirlər görülüb, beynəlxalq akkreditasiya qurumu tərəfindən cəmiyyətdə monitorinqlər aparılmaqla akkreditasiyanın müddəti 2023-cü ilədək uzadılıb.



2020-ci ilin 5 ayı ərzində 278 halda hüquqi və 413 halda fiziki şəxslər tərəfindən daxil olmuş 64 mal çeşidini əhatə edən 285 halda səyyar və 691 halda mal nümunəsi laboratoriya analizindən keçirilib, aparılmış laboratoriya təhlilləri, əsasən, 565 yerli istehsal məhsullarını və 126 idxal məhsullarını əhatə edib. Nəticədə, 689 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 2 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilib.

Muxtar respublika iqtisadiyyatına gündən-günə daha böyük töhfə verən ailə təsərrüfatlarının istehsal etdikləri ərzaq məhsullarından 2020-ci ilin ötən dövrü ərzində 263 halda orta nümunələr götürülərək keyfiyyət və təhlükəsizlik göstəriciləri üzrə laboratoriya təhlilləri aparılıb.

Yerli istehsal məhsullarından olan vafli, tütün məmulatları (siqaret), travertin, mərmər, sement, mineral sular cari ilin ötən dövrü ərzində Gürcüstan, Türkiyə, ABŞ, İraq, Ukrayna, Əfqanıstan, Belçika Krallığı, Türkmənistan kimi ölkələrə ixrac edilib.

Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən verilmiş 45 halda mənşə sertifikatı muxtar respublikada istehsal edilən məhsulların beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin etməklə müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırıb.

Muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası regionda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanmasını təmin edir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Kiçik kənddən böyük təəssüratlar

## *Nəcəfəlidizə abad kəndlər sırasına qoşulur*

***“Nəcəfəlidizə gədiyi” adlanan yüksəklikdə dayanıb kəndi seyr edir, bu kiçik yaşayış məntəqəsini oxucuya necə təqdim edəcəyimi düşünürəm. Qarşımda dayanan və yaşı 50-ni, 100-ü ötmüş ağacların qol-budağı altında “itən” evləri, şaqqıldayıb axan dağ çayını, Nəcəfəlidizəyə qucaq açan Əshabi-Kəhf və Nəhəcir dağlarını, dərə-təpənin qoynunda təbiətin min bir şəfalı nemətinin axtarışına çıxanları tək-tək yaddaşıma yazıram. Dayandığım yerdən həm də aramsız işləyən texnika səsi duyulur. Bu səs kəndi abadlığa, yeniliyə, müasirliyə qovuşduran səsdir.***



Babək rayonunun Qahab-Nəhəcir-Göynük avtomobil yolunun sağında yerləşən, 200-ə yaxın sakini olan Nəcəfəlidizənin ərazisində eyniadlı yaşayış yeri və qala mövcuddur. Tədqiqatçı-jurnalist Zaleh Novruzovun “Nəcəfəlidizə yaşayış yeri və qalası” sərlövhəli məqaləsində oxuyuruq: “Qahab kəndindən Nəhəcirə gedən avtomobil yolunun sağ tərəfində əhalinin “Plovtəpə” adlandırdığı təpə vardır. Təpə ilə yolun ara hissəsində qədim divar qalığı uzaqdan seçilir. Divarın xırda daşları tikinti üçün seçilib aparılsa da, iri daşlardan ibarət qalıqlar yaxşı izlənir. Plovtəpənin qərb hissəsində divar 90 dərəcə bucaq altında şimala tərəf dönür. Yerli sakinlər əvvəllər onun Nəhəcir kəndinə qədər 5-6 kilometrlik məsafədə uzandığını söyləyirlər. Tikilinin yaxınlığındakı kiçik keramika parçaları antik dövrə və orta əsrlərə aiddir”.

Kənd mərkəzində ağsaqqallarla söhbətləşirəm. Qəzetdən gəldiyimizi bilib yaşadıqları yer barədə geniş danışırlar. Onların söhbətindən gəldiyim qənaət budur ki, vaxtilə şəraitsizlik ucbatından bu kənddən neçə-neçə ailə aran yerlərinə üz tutub, orada məskunlaşıblar. Ona görə ki, 70 il hökmranlıq edən Sovet hakimiyyəti illərində Nəcəfəlidizədə daş daş üstünə qoyulmayıb. İnsanlar yaxşı yaşayış, münbit torpaqlar və övladlarının gələcəyi naminə bu yerdən köçmək məcburiyyətində qalıblar. Bir sözlə, uzun illər balaca kənd böyük sosial problemlərin məngənəsində boğulub.

Müstəqillik illəri Qahab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə birləşən Nəcəfəlidizənin də taleyini dəyişib. Nə zaman ki, kənddə məktəb tikildi, yol salındı, təsərrüfat sahələrinin yaradılması üçün dövlət dəstəyi verildi, yeni su kanalı çəkilərək illərlə əkilməyən, necə deyərlər, ilan mələyən düzlərə “can verildi”, bax o zaman kəndli öz od-ocağına, ata yurduna qayıtdı. Onda sabaha inam yarandı və düşündü ki, özünün və övladının taleyini bu kəndlə bağlaya bilər. Bu inamı kənddə Naxçıvanda məskunlaşmanın artması, xüsusən ucqar dağ və sərhəd kəndlərində daimi yaşayışın təmin edilməsi və insanların sosial qayğılarının həll olunmasına göstərilən dövlət qayğısı yaratdı. Dövlət vətəndaşının, onun rahatlığının qayğısına qalır. Bu qayğı indi Nəcəfəlidizəni də ağuşuna alıb. Gözəl bir yaz günündə mühəndislər kəndə gəliblər, yeni tikiləcək binaların – məktəbin, kənd və xidmət mərkəzlərinin yerlərini müəyyənləşdiriblər. Öyrənirik ki, üç mərtəbədən ibarət olacaq məktəb binası yenidən qurulur və perspektiv də nəzərə alınır. Məktəb təlim-tərbiyə məkanı kimi təkcə bir kəndin yox, bir ölkənin gələcəyi ilə bağlıdır. Çünki yalnız vətənpərvər, peşə sahibi olan, dövlətini, dövlətçiliyi sevən şəxs millətinə faydalı ola bilər. Amma bu gün reallıq ondan ibarətdir ki, yaxşı şəraiti olan məktəbdə oxumaq hər kəsə nəsib olmur. Tez-tez televiziyadan izləyirik ki, dünyanın müxtəlif ölkələrində, xüsusən münaqişə ocaqlarında uşaqlar məktəbə getmək üçün özlərini təhlükə altına atır, çətin yollardan keçirlər. Yaşadıqları yerdən kilometrlərlə uzaqda olan və bu gün həyətimizdəki yardımçı tikililəri xatırladan “məktəb”lərə təkcə sağ-salamat gedib-gəlməyin özü belə, sanki qəhrəmanlıq nümunəsi hesab olunur.





Naxçıvanda isə müstəqillik illərində 200-dən çox məktəb binası tikilib və ya əsaslı şəkildə yenidən qurulub.Texnologiyanın yeniliyi hesab olunan internet, kompüter, elektron lövhə hər bir naxçıvanlı şagird üçün əlçatandır.

Yaşadığımız məmləkətdə uşaqlarımız dilənçiliyə məcbur edilmir, müharibə, qorxu altında yaşamır, yeni günü silah səsləri ilə açmırlar. Təlim-tərbiyədən, tədrisdən də uzaq deyillər. Bu gün nəvazişlə boya-başa çatdırdığımız, hər birinin gələcəyi ilə bağlı qəlbimizdə böyük ümidlər bəslədiyimiz uşaqlarımız qayğısız böyüyür və biz bütün bunları müstəqillik illərinin bəhrəsi kimi dəyərləndiririk.

Oruc Həsənov qocaman pedaqoqdur. Deyir ki, hazırkı məktəbin bir hissəsi tibb məntəqəsi üçün ayrıldığından 50 nəfərlik kollektiv 5-6 sinif otağında iki növbədə təlim-tədrislə məşğul olmaq məcburiyyətində qalmışdı. Bununla bərabər, məktəbimiz ötən tədris ilində yüz faizlik nəticə göstərdi. Məzunlarımız tələbə adını qazana bildilər. İnanıram ki, yeni məktəb yeni uğurlar üçün bir stimul olacaq. Bir valideyn, bir müəllim kimi, dövlətimizə minnətdaram.

Heydər Əliyev Su Anbarının sol sahil kanalı Nəcəfəlidizə kəndinin “başının üstündən” keçdiyi üçün, demək olar ki, burada əkilməyən torpaq sahəsi yoxdur. Halal zəhmət, alın təri ilə yaşamağı hər şeydən üstün tutan kənd sakinlərindən biri də sahibkar İlkin Abdullayevdir. O, 2015-ci ildə yaratdığı 2000 kvadratmetrlik istixana kompleksində pomidor yetişdirir, bununla ailəsinin güzəranını yaxşılaşdırır. Gənc təsərrüfatçı deyir: “Bu kənddə böyüyüb boya-başa çatmışam. Bizim uşaqlığımız ötən əsrin 90-cı illərinə təsadüf edib. Atam-anam bizi çətinliklə, ən zəruri ərzaq məhsulu olan çörəyin belə, tapılmadığı bir dövrdə böyütdüklərini deyirlər. Bu gün mənim kimi neçə-neçə gənc dövlətin yaratdığı imkanlardan istifadə edərək sahibkar adını qazanıb, öz işini qura bilib. Torpaq həm də bizim üçün ən yaxşı iş yeridir. Torpaq ona baş əyəni hər zaman uca tutar. Zamanında heç kimin ağlına belə, gəlməzdi ki, Nəcəfəlidizədə tikinti işləri aparılacaq, torpaqlar əkiləcək, məskunlaşma artacaq. Amma bu gün saydıqlarımın hamısı kəndimizin real mənzərəsini əks etdirir”.

Kəndin geniş örüş-düzləri burada heyvandarlığın da inkişafına zəmin yaradır. Son illər Nəcəfəlidizədə arıçılığa maraq artıb. Hələ bacarığı olanlar yaz aylarında çaşırı, bolunu, çirişi, cacığı yığıb satmaqdan da qazanc əldə edirlər. Təsərrüfatçı Aydın Babayev kəndin çölünə-düzünə yaxşı bələddir. “Hərdən müştərilər o qədər olur ki, çaşır yığmağa gedəndə kömək üçün oğul-uşağı da özümlə aparmalı oluram. Naxçıvan torpağının hər qarışı sərvətdir. Gərək bu torpaqda bitən hər bitkinin, otun “dilini” biləsən”.

*Kənddəki işimizi yekunlaşdırıb redaksiyaya qayıdırıq. Abadlıq-quruculuq işləri yekunlaşdıqdan sonra biz bu yurda yenə qayıdacağıq – sakinlərin təəssüratlarını öyrənmək, Nəcəfəlidizənin müasir simasını təqdim etmək üçün...*

**Muxtar RZAZADƏ**
***“Şərqin səhəri” qəzetinin redaktoru***

# *“Farma Şah”* – dərdlərə təbii dərman

*Muxtar respublikamızın saysız-hesabsız şəfalı bitki, giləmeyvə və meyvələrinin faydası, təbabətdə istifadəsi, müalicəvi xüsusiyyətləri insanlara çoxdan məlumdur. Bu üsullar zamanın sınağından uğurla çıxaraq müasir elmi-texniki tərəqqi əsrində də öz əhəmiyyətini itirməyib. Hətta bir vaxtlar xalq təbabətinə qısqanclıqla yanaşan elmi təbabət də bu gün onların əhəmiyyətini etiraf etməkdədir. Belə xüsusiyyətə malik bitkilərin əksəriyyəti diyarımızda ya yabanı halda bitir, ya da mədəni şəkildə insanlar tərəfindən xüsusi qulluq göstərilərək yetişdirilir. Bunlar arasında başqa yerlərdən gətirilərək yerli şəraitə uyğunlaşdırılan bitki növləri də vardır.*

*Bu gün dövlətimizin hər bir vətəndaşa göstərdiyi diqqət və qayğının bariz nümunəsidir ki, insanlar müxtəlif sahibkarlıq subyektləri və ailə təsərrüfatlarında birləşərək öz dolanışıqlarını təmin etməklə yanaşı, həm də digər insanlara faydalı xidmət göstərirlər. Belə sahibkarlıq subyektlərindən biri də Şahbuz rayonunda yerləşən “Farma Şah” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Burada görülən işlər barədə daha ətraflı məlumat almaq üçün cəmiyyətin rəhbəri Yasin Babayevlə həmsöhbət olduq.*

***– Yasin müəllim, müəssisənin yaranma tarixi haqqında oxucularımıza məlumat verməyinizi xahiş edirik.***

– Bildirmək istəyirəm ki, “Farma Şah” 2009-cu ildə təsis edilib, 2010-cu ilin sonlarından isə tam fəaliyyətə başlayıb. Burada 7 daimi, 1 müvəqqəti, 20 mövsümi işçi çalışır. İkimərtəbəli binada yerləşən və hərtərəfli şəraitə malik olan müəssisənin həyətyanı sahəsi də var. Biz həmin sahədə bəzi bitkiləri özümüz yetişdiririk. Qeyd etmək istəyirəm ki, ilk vaxtlar cəmi 4 adda bitkini əldə düzəldilən qablaşdırmada istehsal edirdik. İlbəil fəaliyyətimizi genişləndirərək İran, Rusiya, Hindistan istehsalı olan müxtəlif avadanlıqlar alaraq müəssisədə müasir iş şəraiti yaratdıq. Bundan sonra müəssisənin istehsal gücü də artırıldı, məhsullarımızın çeşidi də. Alınan bitkiləri əvvəlcə xüsusi aparatda yuyub quruduruq. Daha sonra isə doğrama, iri, narın, çox narın üyütmə, liptomlama, polietilen vurma, kapsul doldurma aparatları vasitəsilə qablaşdırırıq.



***– Məhsullar üçün xammalı necə əldə edirsiniz?***

– Müəssisəni əsas xammalla Şahbuz rayonunun Biçənək, Kükü, Keçili kəndlərinin sakinləri təmin edirlər. Ehtiyacımız olan məhsulları günün ayrı-ayrı vaxtlarında müxtəlif ərazilərdən toplayan sakinlər müəssisəyə təhvil verirlər. Elə bitkilər var ki, onlar bu rayonun ərazisində bitmədiyi və yaxud ehtiyatı az olduğu üçün onları muxtar respublikanın digər rayonlarının sakinlərindən qəbul edirik. Bitkilərin toplanması ilə bağlı da tədarükçülərə məsləhətlərimizi veririk. Bitkiləri, əsasən, qurudulmuş halda qəbul edirik. Çünki yaş halda onların həm daşınması çətinləşir, həm də daşındığı müddətdə tərkibində dəyişiklik yarana bilər. Bitkilərin qurudulması isə onların keyfiyyətinin qorunub-saxlanılmasına səbəb olur. Elə bitkilər də vardır ki, onları tədarükçünün qurutması çətin olur. Bunlara, əsasən, qabıqlar, meyvə və giləmeyvələr aiddir. Bu cür məhsulları biz yaş-yaş alıb özümüz qurudur, sonra emal edirik. Emal prosesi də bir neçə mərhələdən keçir. Yığım zamanı bitkiyə başqa otlar qarışdığından məhsul əvvəlcə çeşidlənməlidir. Daha sonra o üyüdülür. Elə bitki var ki, biz istehsal zamanı onu müəyyən qutulara yığırıq. İstifadəçi onu qaşıqla müəyyən olunmuş miqdarda götürərək istifadə edir. Elələri də var ki, onları birdəfəlik istifadə üçün lipton şəklində istehsal edirik. Bu zaman bitkiləri üyüdür, onun tozunu kənarlaşdırıb xüsusi aparatla filtir paketlərə doldururuq. Həmin paketlərə 1,5 qram məhsul yerləşdirilir.

Bizim məhsulların, demək olar ki, hamısının istifadə müddəti istehsal olunduğu vaxtdan iki il müddətinə qədərdir. İki ildən sonra isə həmin məhsul mütləq yandırılaraq istifadədən çıxarılmalıdır.




***– Bəs müəssisədə neçə adda, neçə çeşiddə məhsul istehsal olunur?***

– Əvvəllər istehsal etdiyimiz məhsullara maraq az idi. İllər keçdikcə, təbii bitkilərlə müalicəyə maraq artdıqca məhsullarımıza tələbat da çoxaldı. Əgər 2010-cu ildə cəmi 4 adda məhsulla fəaliyyətə başlamışdıqsa, bu gün 64 adda, 79 çeşiddə məhsul istehsal edirik. Yeni başlayanda məhsullarımız ancaq aptek şəbəkələrində satılardı. Artıq indi apteklərlə yanaşı, böyük marketlərdən də məhsullarımızı əldə etmək olar. Bildirim ki, istehsal etdiyimiz məhsullar sırf dərman vasitəsi deyil, həm də qidaya bioloji aktiv əlavələrdir. Bizim məhsullar dərmanlardan fərqli olaraq tam təbii tərkiblidir. Adi, limonlu, qızılgül ətirli kəklikotu, baldırğan, həmərsin çiçəklərindən, yemişanın, zirincin meyvələrindən hazırlanan çaylar insan orqanizmi üçün əvəzsizdir. Təbii minerallarla yanaşı, bir sıra vitaminlərlə zəngin olan bu çayların tərkibindəki antioksidant maddələr insan orqanizmində bədxassəli şişlərin yaranmasının qarşısını alır, xolesterolun miqdarını azaldır, artıq çəkinin yaranmasının qarşısını alır, beyin hüceyrələrini aktivləşdirir. Razyana və şüyüddən hazırladığımız bitki çayı mədə-bağırsaq problemlərinin həlli üçün böyük əhəmiyyətə malikdir. Qeyd edim ki, bu ildən istehsalına başladığımız yeni məhsulların sırasında olan gülümbahar və qaraqınıq bitkilərindən hazırlanan çayların, ürək, yuxarı tənəffüs yolları xəstəliklərində, soyuqdəymədə əvəzsiz faydası vardır.



Naxçıvanın səfalı dağlarında bitən bitkilərdən istehsal etdiyimiz hər bir qarışım sağlamlıq üçün faydalıdır. Yuxarıda qeyd etdiyim kimi, məhsullarımız qida əlavəsi olduğuna görə məsləhət görərdim ki, insanlar hər hansısa bir xəstəliyə tutulmamışdan əvvəl bu məhsullardan mütəmadi istifadə edərək immunitetlərini güclü saxlasınlar.

***– İstehsal etdiyiniz məhsullara diyarımıza gələn qonaqlar necə maraq göstərirlər?***

– Bildirim ki, muxtar respublikamız həm də turistlərin marağında olan bir məkandır. Gələn turistlər respublikamızın gəzməli-görməli yerləri ilə yanaşı, onun bitki aləmi ilə də maraqlanırlar. Bu gün qədər müəssisəmizdə Rusiya, İran, Almaniya və digər ölkələrdən qonaqlar, turistlər olub. Onlar qızılgül, limon ətirli kəklikotu çaylarından içdikdən sonra bu bitkilərə heyranlıqlarını gizlədə bilmirlər və istehsal etdiyimiz məhsulları öz ölkələrində görmək istəyənlər çox olur. Gələcəkdə məhsul ixracına nail ola bilməyimiz, heç şübhəsiz ki, həm iqtisadi, həm də muxtar respublikamızın təbii zənginliklərinin dünyəvi təbliği baxımından əhəmiyyətli olar. Türkiyə Respublikasında da məhsullarımıza böyük maraq var. Buna görə də yaxın gələcəkdə ixrac prosesinə başlamağa çalışacağıq.

Müsahibimlə sağollaşıb ayrılaraq öz-özümə düşünürəm: sağlamlıq böyük nemətdir. Onun qayğısına vaxtında qalmaq isə hər birimizin öz əlindədir. Gəlin bu təbii bitkilərlə həm özümüzü, həm də yaxınlarımızın sağlamlığını vaxtında qoruyaq ki, kimyəvi tərkibli dərmanlara ehtiyacımız olmasın.

**✍ Telli MƏMMƏDOVA**

***İnformasiya texnologiyaları yenilikləri ilə zəngin olan 20-ci əsr və xüsusilə də 20 ilini arxada qoyduğumuz 21-ci əsr digər sahələrdə olduğu kimi, media, kütləvi informasiya vasitələri sahəsində də öz sözünü deməkdə, öz diktəsini etməkdədir. İstəsək də, istəməsək də bu, belədir. Dövrün reallığı və tələbi kimi media, kütləvi informasiya vasitələri sistemində də informasiya-kommunaktiv xarakterli texnoloji yeniliklər tətbiq olunmaqdadır. Bu yeniliklərdən biri də internetdir. İnternet informasiya təminatı baxımından son illərin ən çox üz tutulan və ən çox tələbat duyulan sahəsinə çevrilib. Yazını hazırlayarkən dövrün bu yeniliyinin faydaları haqqında xeyli düşündüm. Ancaq bu, ayrı bir mövzudur. Mən internetdə mətbuat azadlığından sui-istifadə hallarının geniş yayılması və buna qarşı mübarizə üsullarından danışmaq istərdim.***

# Dezinformasiya, yoxsa real informasiya təminatı

## *Mətbuat azadlığından sui-istifadə hallarına qarşı düzgün ictimai rəy formalaşdırmaqla mübarizə aparaq*




Əvvəla, mətbuat azadlığından sui-istifadə metodu olması ilə seçilən dezinformasiyalardan söz açmaq istəyirəm. İlk əvvəl "dezinformasiya" sözünün mənası, törətdiyi fəsadlar, nəticələr haqqında danışmaq istəyirəm. Dezinformasiya fərdləri və cəmiyyətləri yanlış istiqamətləndirmək məqsədilə saxta, təhrif olunmuş məlumat vermək deməkdir. İnsanları ilk baxışdan cəlb etməklə onları inandırmağın, daha doğrusu, aldatmağın ən təsirli yoludur. Daha doğrusu, əks-təbliğat gücünə malik, zahirən obyektiv görünən, inandırıcı üsuldur. Həqiqətləri gizlədərək əks məlumat verməkdir. Dünyada seçilən, bütün sahələri əhatə edən ideoloji müharibə metodudur. Yaxın tarixə nəzər salsaq, Azərbaycanın əzəli torpaqları barədə ATƏT, BMT və digər beynəlxalq təşkilatlarda yalan bəyanatlarla çıxış edən ermənilər tarixi faktları olmadan saxta keçmiş yazaraq qlobal dünya siyasətini inandırmaq missiyasını həyata keçiriblər.

Çox təəssüf ki, ölkəmizin, eləcə də muxtar respublikamızın iqtisadiyyatı, hərbi imkanları barədə bəzən dünya mediasında müxtəlif, həqiqətə uyğun olmayan məlumatlarla rastlaşırıq. Qərəzli şəkildə illərdir, hər hansı sübuta əsaslanmadan, mənbəyə istinad edilmədən yayılan belə dezinformasiyalar, təbii ki, mənfur ermənilərdən gəlir. Guya bizim quyuya daş atırlar. Bilmirlər ki, quyuya atdıqları daş elə bizim torpaqların daşıdır. Əsrlərdir torpağımıza göz dikən, musiqimizi, mədəniyyətimizi, mətbəximizi oğurlayan bu xainlər dezinformasiya imkanlarından da utanmazca istifadə etməyi bacarırlar.

Ermənilər tarixən Naxçıvanla bağlı çirkin niyyətlərindən əl çəkməyib, müxtəlif təşkilat və cəmiyyətlər yaradıb, mətbu orqanlarında bu diyarla bağlı saxta, heç bir elmi əsası olmayan, obyektivlikdən uzaq olan yazılar dərc etdiriblər. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev 18 mart 2020-ci il tarixdə "Şərq qapısı" qəzetində dərc olunan yazısında ərazi iddialarında olan erməniləri ciddi ifşa edir: "Naxçıvan tarixin heç bir mərhələsində ermənilərə aid olmamışdır. Ona görə ki, ermənilər bu regionun yerli – aborigen əhalisi olmamışlar, onlar Cənubi Qafqaza gəlmədirlər, yaşadıqları indiki Ermənistan ərazisi qədim və tarixi Azərbaycan torpaqlarıdır. Bununla bağlı V.İşxanyan göstərmişdir ki, "ermənilərin həqiqi vətəni Kiçik Asiyadır, Qafqaz ərazisinin müxtəlif hissələrinə ermənilər yalnız son yüzilliklər ərzində səpələniblər". Azərbaycan türkləri bu ərazilərin ən qədim sakinləri, aborigen əhalisi olmuşdur. Qədim erməni mənbələrinin heç birində Naxçıvan bölgəsində ermənilərin yaşaması haqqında məlumat yoxdur".

Həmçinin akademik diqqətə çatdırır: "Erməni "tədqiqatçıları" "Naxçıvan XIX əsrin əvvəllərində də Ermənistanın tərkibində olmuşdur" kimi yanlış və qeyri-obyektiv fikirlər söyləyirlər. Qeyd etməliyik ki, həmin dövrdə Ermənistan dövləti yox, "erməni vilayəti" (1828-1840) olmuşdur, bu isə Azərbaycan ölkəsinin bölgələri olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində yaradılmışdır. Orada yaşayan əhalinin tərkibində müsəlmanlar mütləq əksəriyyət təşkil edirdilər".

Əvvəldə də qeyd etdiyimiz kimi, dezinformasiya, əslində, ideoloji müharibə hesab edilir. Mənfur düşmənlərimiz öz xislətlərindən əl götürməyib bu müharibəni davam etdirsələr də, işin iç üzünü açacaq məqamlar da meydana çıxır. Bəzən internetdə göstərdikləri o cəsarəti beynəlxalq tədbirlərdə nümayiş etdirə bilmirlər. Dəfələrlə gerçək iddia etdikləri saxta məlumatların üzlərinə sillə kimi vurulmasına baxmayaraq, çirkin yollarından əl çəkmirlər. Necə ki, bu ilin əvvəllərində keçirilən Davos Forumunda bizimlə yanaşı, dünya ölkələri də erməni biabırçılığının şahidi oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Ermənistanın baş naziri Nikol Paşinyan arasındakı qeyri-rəsmi görüş zamanı iki siyasətçinin dialoqu dünya mediası tərəfindən dəyərləndirildi. Ölkə başçımızın səlis və dərinməzmunlu siyasi nitqi alqışlarla qarşılandı. Əks tərəfin isə Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olması ilə bağlı gerçəkləri istəmədən dilə gətirməsi və cəmiyyətə olduğu kimi çatdırılması yalançının yaddaşı məsələsini ortaya qoydu.

Heç usanmadan öz çirkin niyyətlərini həyata keçirmək istəyən düşmənlərimiz dezinformasiya müharibəsini öz milli mentalitetlərinə və dövlət siyasətinə uyğun şəkildə davam etdirməkdədirlər. Bu hallara sosial mediada daha çox rast gəlirik. Buna təxribat xarakterli informasiyaları misal göstərə bilərik. Ermənilərin müxtəlif yollarla yaydıqları dezinformasiyalar çarəsizliklərini göstərməkdən başqa bir şey deyil. Dünyanın inkişaf etmiş ölkələrini aldadan bu yadellilərə vicdansız deməkdən başqa bir söz tapmaq çətindir. Təkcə bir faktı qeyd edək ki, 2018-ci ilin Günnüt zəfərindən sonra Ermənistan saytlarında gördüyümüz yalan məlumatlar yenə hər birimizdə ikrah hissi yaratdı. Öncə məlumatı yada salaq. Ermənistan silahlı qüvvələri 5-ci korpusunun komandanı, polkovnik Andranik Piloyanın erməni mediasına verdiyi məlumatdan belə başa düşülür ki, dövlət sərhədlərini guya təminat səbəbindən tərk etmişlər. Həqiqətdə isə xalqımız bu tarixi günün sevincini hələ də dünənki kimi xatırlayır. Əsgərlərimizin inadlı mübarizəsi onları yaman qorxuya salmışdı. Görünən odur ki, o günün hələ də təsirindən azad ola bilmirlər. Dezinformasiyalarına davam edirlər.

Ermənistan Azərbaycanın mədəni irs nümunələri ilə bağlı "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyasına qarşı təxribat xarakterli cəhdlər etsə də, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə təşəbbüs və tapşırığı ilə "Köçəri" və "Tənzərə" yallılarının AMEA Naxçıvan Bölməsi tərəfindən araşdırılması nəticəsində uğursuz cəhdlərin qarşısı alınmış, 2018-ci ilin 26 noyabr-1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul olunmuş qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilmişdir.

Təəssüf hissi ilə qeyd edək ki, həqiqətə uyğun olmayan belə informasiyalar təkcə düşmən dezinformasiyaları ilə məhdudlaşmır. Bu məqamda ölkəmizdə fəaliyyət göstərən, mətbuat azadlığından sui-istifadə edən internet "fenomenlərindən" də söz açmaq yerinə düşər. Acınacaqlı haldır ki, əsasən də mənbəsiz qurumlar sosial şəbəkələrin verdiyi geniş imkanlardan "yararlanaraq" təbliğatlar aparırlar. Dezinformasiya siyasəti güdən belə hallar yerli əhali tərəfindən haqlı olaraq narazılıqla qarşılanır. Bu, Naxçıvanda yaşayıb gerçəklikləri görən yerli əhalinin "Görünən dağa nə bələdçi" ifadəsinə misal olaraq bəzi əsassız və saxta məlumatlara qarşı təbii əks-reaksiyası idi.

Təəssüf hissi ilə vurğulamaq istəyirəm ki, bu gün ölkəmizdə dezinformasiya yayan mənbələr az deyil. Bunlar, əsasən, "Instagram", "Facebook", "Twitter" kimi sosial media üzərindən gündəm qazanmağa çalışan, "jurnalist" olmağa can atan yalançı təbəqədir. Xalqı yalan məlumatlarla aldatmağa çalışırlar. Mənbəyə istinad edilmədən sui-istifadə hallarına yol verən bu təbəqə nümayəndələri informasiyanın dəqiqliyini yoxlamadan hardan gəldi məlumat əldə edib, necə gəldi paylaşımları ilə diqqət



çəkməyə çalışırlar. Reytinq qazanmaq naminə etik davranışlara əməl etmədən yazılar, məlumatlar, xəbərlər yayımlayırlar. Belə dezinformasiyalar jurnalist araşdırmasının, peşəkar yanaşmanın nə qədər vacib olduğunun zəruriliyini ortaya qoyur. Ümummilli liderimiz Heydər Əliyev vaxtilə jurnalistika sahəsində kadr hazırlığını daha da təkmilləşdirməyin vacibliyindən danışarkən bu məsələyə də diqqət yetirərək demişdir: ***"Jurnalist peşəsində həvəs göstərənlər birinci düşünsünlər ki, onun jurnalist olmaq, bu peşəni mənimsəmək qabiliyyəti var, yoxsa yox. Hər adam müğənni ola bilməz, hər adam, tutaq ki, bəstəkar ola bilməz, hər adam, rəssam ola bilməz... Hərənin bir peşəyə meyli var. Bu meyil də, sadəcə, o peşəni istəmək yox, o peşədə fəaliyyət göstərmək qabiliyyətindən asılı olmalıdır. Mən arzu edirəm ki, jurnalistlər, bax bu yolla getsinlər".***

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, nümunəvi media qurumlarının fəaliyyət göstərdiyi Naxçıvan Muxtar Respublikasında aparılan məqsədyönlü dövlət siyasəti nəticəsində bu gün artıq çoxillik informasiya blokadası yarılmışdır. Burada çalışan yüzlərlə jurnalist bu gün yaradılan şəraitdən istifadə edərək öz işinin öhdəsindən vicdanla gəlməyi bacaranlar sırasındadır. İllərdir, mənfur düşmənlərimiz tərəfindən blokadaya alındığı kimi, informasiya blokadasına da məhkum edilən bir diyar aparılan məqsədyönlü siyasət nəticəsində bu gün müxtəlif sahələrin fəaliyyəti barədə nəinki ölkəmizin hər yerinə öz səsini obyektiv və operativ surətdə təhrifə yol vermədən çatdıra bilir. Bu günün əsas gündəmi olan pandemiya və bu sahədə ölkə rəhbərinin tapşırığı ilə muxtar respublikada da görülən işlər barədə də dəqiq məlumatlar vətəndaşların nəzərinə çatdırılır. Bu barədə türk media nümayəndələri də Naxçıvanda görülən bu qabaqlayıcı tədbirləri yüksək dəyərləndirib və nümunəvi addım kimi öz səhifələrində təqdim etmişdilər.

O da xüsusi qeyd olunmalıdır ki, dəqiqləşdirilməmiş, yalan informasiyalar paylaşıb saxta vətənpərvərlik nümayiş etdirənlər ölkəmizə və Naxçıvana qarşı açıq-aşkar təxribat törədənlərdir. Onlar bu təxribatlara görə qanun qarşısında məsuliyyət daşıyırlar. Belə yanlış informasiya minlərlə insanın psixologiyasını poza, həyat tərzini dəyişdirə, inamını itirə bilər. Odur ki, hər bir informasiya rəsmi və qərəzsiz mənbələrdən alınmalıdır…

Bir sözlə, azad media əqidə azadlığı və onu sərbəst ifadə etmək hüququna malikdir. Öyünərək deyə bilərik ki, bu hüquqa maneəsiz olaraq istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir. Bunu hələ Naxçıvan Dövlət Universitetində təhsil ala-ala işlədiyim "Şərq qapısı" qəzetinin mənə yaratdığı imkanlardan istifadə edərək jurnalistikaya ilk gəldiyim zamanların təcrübəsindən söyləyə bilərəm. Peşəkar jurnalistlər burada yaradıcılıq qabiliyyəti olan gənc jurnalistlərin yetişdirilməsi üçün yaxından köməklik göstərirlər. Onlara real imkanlardan istifadə edərək obyektiv, dürüst və vicdanlı olmağın əsas şərtlər olduğunu öyrədirlər.

Bu gün Naxçıvanın mətbuat nümayəndələri ölkə gündəmini, hərtərəfli inkişaf sahələrini, muxtar diyarın tarixi və turizm potensialı haqqında məlumatları oxucuya daha operativ çatdırılması istiqamətində səylə fəaliyyət göstərirlər. Sevindirici haldır ki, gənc mətbuat nümayəndəsi kimi blokada şəraitini hiss etmədən hər hansı bir informasiyanı, azad, demokratik fikirlərimizi ictimaiyyətin nəzərinə çatdıra bilirik. Çünki söz, fikir azadlığı cəmiyyətin ideya istehsalının təminatıdır. Gördüyümüz yeniliklərdən, gözəlliklərdən ürəkdolusu danışa biliriksə, deməli, söz və məlumat azadlığı hüququna malikdir.

Sonda Bakı Dövlət Universitetinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti Akif Rüstəmovun jurnalistlərə verdiyi dəyərli tövsiyəni nəzərinizə çatdırmağı özümə borc bilirəm: "Yadda saxla! Jurnalist olmaq üçün geniş dünyagörüşün olmalıdır. Dünyamızda və ölkəmizdə baş verən hadisələrdən xəbərdar olmalısan, onları süzgəcindən keçirməlisən. Ən əsası içində bu peşəyə sevgi olmalıdır. Və bir də yazı qabiliyyətin olmalıdır. Bax bu dediyimi unutma: kim yaxşı düşünürsə, o da yaxşı yazır".

*Əziz jurnalist həmkarlarım, məlumatların dezinformasiya olub-olmadığını yoxlamaq, ona qarşı reallıqları ortaya qoymaqla mübarizə aparmaq işimizin peşəkarlığından xəbər verir. Bu qaydaya əməl etsək, sözümüz kəsərli, qələmimiz iti olacaq! Cəmiyyətə həqiqəti əks etdirən real məlumatlar gərəkdir, dezinformasiya məlumatları yox. Xalqı aldatmaq millət sevgisinin göstəricisi deyil, ona qarşı hörmətsizlikdir. Etik qaydalara əməl edən, işini peşəkarcasına dürüst və vicdanla yerinə yetirən hörmətli dördüncü hakimiyyət nümayəndələrinə fəal həyat mövqeyi, hadisələrə operativ yanaşma və hər zaman qərəzsiz olmaqda davam etməyi arzulayıram.*

**Türkan HÜSEYNLİ**

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Muxtar respublikada yaşayan işgüzar qadınlar üçün iqtisadi dəstəklə bağlı tədbir olub



Dünən Naxçıvan Biznes Mərkəzində Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan və Avropa İttifaqının maliyyələşdirdiyi, BMT-nin İnkişaf Proqramının qismən maliyyələşdirdiyi və icra etdiyi "Genderə həssas dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" adlı genişmiqyaslı proqram çərçivəsində "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi çərçivəsində növbəti tədbir olub.

Azərbaycan Mikromaliyyə Assosiasiyası və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən muxtar respublikada yaşayan qadınlara pandemiya dövründə iqtisadi dəstək göstərilməsi məqsədilə keçirilən tədbirdə komitə sədri Ramilə Seyidova çıxış edib. O bildirib ki, "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi çərçivəsində 319 qadın iştirakı ilə "Gələcəyini planlaşdır" və "Öz biznesinə başla və inkişaf etdir" adlı 12 təlim keçilib. Layihənin yekununda öz uğurlu biznes planları ilə seçilən 13 sağlamlıq imkanı məhdud şəxs də daxil olmaqla, ümumilikdə, 63 qadına 80 faizi ailə təsərrüfatını genişləndirmək və ya qurmaq üçün, 20 faizi isə toxuculuq, dərzilik, bərbərlik və sair sahələr ilə məşğul olmaları üçün, ümumilikdə, 43 min 700 manat dəyərində sərmayə kapitalı verilib, onlarla müvafiq müqavilələr bağlanılıb.

Vurğulanıb ki, muxtar respublikada pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı həyata keçirilən qabaqlayıcı tədbirlər, səhiyyə sahəsində verilən operativ qərarlarla bu təsirlərin qarşısı alınıb. Görülən tədbirlərin bariz nümunəsidir ki, digər sahibkarlarla yanaşı, muxtar respublikamızda yaşayan qadınlara da iqtisadi dəstək göstərilir. Belə ki, sözügedən layihənin davamı olaraq pandemiya dövründə iqtisadi dəstək göstərilməsi məqsədilə ötən il keçirilən təlimlərdə iştirak edərək sertifikat alan, lakin sərmayə kapitalı almayan 39 qadına 25200 manat dəyərində sərmayə kapitalı verilib. Sərmayə kapitallarının 72 faizi ailə təsərrüfatını genişləndirmək və ya qurmaq, 28 faizi isə dərzilik, bərbərlik, xalçaçılıq, rəssamlıq, zərgərlik, psixoloji xidmət sahəsi ilə məşğul olmaq üçün verilib. Layihənin icrasının 1 may-15 iyun 2020-ci il tarixlərdə nəzərdə tutulan ikinci hissəsi uğurla başa çatdırılıb.

Komitə sədri çıxışının yekununda qadınlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Tədbirdə Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova layihə ilə bağlı ətraflı məlumat verib, qadınlara sahibkarlıq fəaliyyətlərində uğurlar arzulayıb. Layihə rəhbəri pandemiya haqqında da geniş söhbət açıb. İştirakçılara qoruyucu vasitələr paylanılıb.

Sonra 20 qadına sərmayə kapitalı ilə əlaqədar imzalanmış müqavilələr təqdim olunub. Layihə iştirakçıları göstərilən qayğı və dəstəyə görə dövlətimizə minnətdarlıq ediblər.

Qeyd edək ki, tədbir mövcud vəziyyətlə əlaqədar olaraq sosial izolyasiya qaydalarına uyğun həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Mütəxəssis sözü*

# İnteraktiv metodlardan səmərəli istifadə xarici dillərin tədrisində keyfiyyəti yüksəldən mühüm amildir



***Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan təhsil islahatları hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, təhsil sahəsində çox ciddi irəliləyişlər olmuş, qarşıya çıxan problemlər qısa bir zamanda öz müsbət həllini tapmışdır.***

Naxçıvan Muxtar Respublikasında da təhsilə göstərilən diqqət və qayğı, bu istiqamətdə aparılan islahatlar, xüsusilə təhsil müəssisələrinin müasir tələblərə uyğun yenidən qurulması yüksələn xətlə müşahidə edilir.

Muxtar respublikanın mühüm ali təhsil ocaqlarından olan "Naxçıvan" Universitetinin əsaslı şəkildə yenidən qurulması, ən müasir maddi-texniki baza ilə təchiz olunması bunun bariz nümunəsidir.

Universitetdə müstəqil təhsil sistemini yaratmaq və onun səviyyəsini yüksəltmək istiqamətində aparılan təhsil islahatları onu Bolonya prosesinə qoşulmağa gətirib çıxarıb. Bu prosesin məntiqi davamı kimi müəllim yönümlü tədrisdən tələbəyönümlü tədrisə keçilib, tədris planları, fənn proqramları dəyişdirilib.

Müasir təhsil sistemində aparılan islahatların təhsilin məzmununun əsaslı dərəcədə dəyişdirilməsi və təlim prosesindəki metod və texnologiyaların xeyli müasirləşməsində əvəzsiz rolu olmuşdur. Qabaqcıl ölkələrin təhsil sistemlərində yaranan yeni baxışlar və interaktiv metodlardan artıq ölkəmizdə də bütün fənlərin tədrisində olduğu kimi, xarici dillərin tədrisi prosesində də geniş miqyasda istifadə edilir.

Xarici dilin tədrisi qarşısında daim "nəyi və necə öyrətməli?" sualı olmuşdur. Hər bir müəllim də tədris etdiyi kursun bu suallara nə dərəcədə cavab verdiyini müəyyənləşdirməlidir. Hazırda xarici dilin tədrisi zamanı öz fikrini xarici dildə ifadə etmək və xarici dildə olan nitqi başa düşmək kimi iki tələb əsas götürülür. Bu tələblərin irəli sürülməsi bir daha göstərir ki, xarici dillərin tədrisində əldə ediləcək uğurlar, əsasən, metodika ilə bağlıdır. Dərslərin audio və ya videoqeydlərini aparmaqla, tələbələrə sorğu vərəqi təqdim etməklə, onlarla müsahibə aparmaqla, dərsi dinləmək üçün həmkarlarını və ya onlardan heç olmazsa, birini dəvət etməklə bu nəticənin nə qədər uğurlu olub-olmamasını yoxlamaq mümkündür.

Dil öyrənmək bu sahədə bacarıqları inkişaf etdirməklə mümkündür. Bu səbəblə öyrənməni, sadəcə, kitab vasitəsilə oturaq şəkildə həyata keçirməmək əsas şərtlərdən biridir. İnteraktivliyi qorumaq məqsədilə tələbələri tamamilə olmasa da, qismən qrammatikadan qopararaq davamlı danışığa, yazmağa, dinləməyə və oxumağa istiqamətləndirmək nəticə verə bilər.

Ənənəvi təlim sistemində bilikləri əldə etmək üçün öyrənəni iki əsas bilik mənbəyi (müəllim və dərslik) qane edirdisə, bu gün həmin mənbələr kifayət etmir. Bu səbəbdən müasir təlimin başlıca vəzifələrindən biri öyrənməyi öyrətməkdir, yəni öyrənənlərə bilikləri müstəqil əldə etmək bacarığını aşılamaqdır. Yalnız təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi səmərə verə bilər. Eyni zamanda şəxsiyyətyönümlü belə tədris prosesi inkişaf proseslərinin keyfiyyətinə də təsir edəcək: idraki və sosial fəallığı artırmaqla şəxsiyyətin dəyərlərini və vərdişlərini formalaşdıracaq. Bu tələblərin nəzərə alınması yaradıcı təfəkkürə və yeni biliklərə müstəqil yiyələnmə üsullarını özündə birləşdirən interaktiv təlim texnologiyalarına üstünlük verməyi tamamilə zəruri edir. Dünya təcrübəsi göstərir ki, interaktiv təlim metodu dərsin keyfiyyətini artırmaq üçün güclü vasitə ola bilər. Bu metod öyrənənlər üçün dərsi çox maraqlı və cəlbedici edir.

İnteraktivlik təlim prosesində müəllim və tələbə arasında işin gedişindən, mövzudan, şərhdən, dialoqdan, rollu oyundan həmin anda meydana çıxan yanaşmadır. Yəni bu tərz əvvəldən planlaşdırılmır, təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox öyrənənin müstəqilliyi, müdaxiləsi ilə baş verir. Digər tərəfdən interaktivlik öyrənənlərin özləri arasında da ola bilər. Əsas cəhət odur ki, bu prosesdə əməkdaşlıq edən öyrənənlər və öyrədən eynihüquqlu mövqedə dayanırlar.

Bildiyimiz kimi, hazırkı dövrdə təlim prosesində əsas diqqət mərkəzi tələbə, onun şəxsiyyəti və unikal dünyasıdır. Buna görə də bu günün müəlliminin əsas məqsədi təlim fəaliyyətinin təşkilində ən yaxşı üsul və formaları seçməkdir. Xarici dil müəlliminin vəzifəsi hər bir tələbə üçün dilin praktik mənimsənilməsinə şərait yaratmaq, onların aktivliyini, yaradıcılığını nümayiş etdirməyə imkan verəcək və xarici dili öyrənmə prosesində mənimsəmə bacarıqlarını gücləndirəcək təlim metodlarını seçməkdir. Xarici dilin tədrisinin müasir texnologiyaları – əməkdaşlıq şəraitində öyrənmə, layihə metodologiyası, yeni informasiya texnologiyalarından istifadə təlimdə şəxsiyyətyönümlü yanaşmanın gerçəkləşməsinə, tələbələrin bacarıqlarını, öyrənmə səviyyələrini yüksəltməyi nəzərə alaraq təlimin fərdiləşdirilməsinə və fərqlənməsinə şərait yaradır.

Bu gün xarici dil müəllimləri interaktiv təlim texnologiyalarından istifadə etməklə xarici dilin öyrənilməsində, tələbələrin elmi maraqlarının artırılması və öyrənmədə müsbət motivasiyanın gücləndirilməsində qarşıya çıxan problemləri həll edə bilərlər. Xarici dilin tədrisinin interaktiv forma və metodlarından istifadə şəxsiyyətyönümlü yanaşmaya əsaslanaraq yerinə yetirilməlidir.

Təlim materialları əsasında tələbələrin qarşılıqlı əməkdaşlıqları və təşkilatçılıq bacarıqları, bütövlükdə, təlim fəaliyyətinin səmərəliliyinin artırılmasında güclü bir amilə çevrilə bilər.

Deyilənlərdən belə bir nəticəyə gəlirik ki, interaktiv təlim zamanı tələbənin mövqeyi "kəşf edən", "tədqiqatçı" mövqeyidir. O, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən bunları müstəqil tədqiqat prosesində həll edir. Öyrənənlər təlim prosesinin tamhüquqlu iştirakçısı olaraq bu prosesdə tədqiqatçı kimi çıxış edirlər və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər.

Müəllim problemli vəziyyətləri planlı və istiqamətlənmiş surətdə təşkil edir, tələbələr qarşısında tədqiqat məsələlərinin meydana çıxmasına şərait yaradır və onların həllinə metodik köməklik göstərir.

Sonda alman dili müəllimi kimi deyə bilərəm ki, indiyədək bu dilin çox az sayda məktəbdə tədris olunması və abituriyentin ixtisas seçimində heç bir dil məlumatı olmadan alman dilini seçməsi və ya praktik cəhətdən dil biliklərinin zəif olması biz müəllimlərə tədris prosesində interaktiv metoddan istifadədə çətinliklər yaradırdı. Lakin muxtar respublika rəhbərinin böyük qayğısı və təşəbbüsü nəticəsində artıq qarşıdan gələn 2020-2021-ci tədris ilindən bir çox şəhər və kənd məktəblərində alman dilinin tədrisinə başlanılacaq.

*İnanırıq ki, Avropa təhsil sisteminin metod və üsullarından geniş və özünəməxsus şəkildə istifadə edərək xarici dilin tədrisində yaranan problemləri müvəffəqiyyətlə aradan qaldıra biləcəyik.*

**İradə CƏFƏROVA**
**"Naxçıvan" Universitetinin müəllimi**

*Müasir tədris şəraiti ilə təmin olunmuş Naxçıvan Qızlar Liseyinə oxumaq üçün muxtar respublikanın müxtəlif rayon və kəndlərindən şagirdlər müraciət edirlər. Burada təlim ümumi orta və tam orta təhsil pillələrində aparılır.*

# Naxçıvan Qızlar Liseyinə qəbul imtahanı keçirilib



Ümumtəhsil məktəbinin ibtidai təhsil pilləsini yaxşı və əla qiymətlərlə başa vuran qızların bu təhsil ocağına qəbulu hər tədris ilinin sonuna yaxın Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən seçmə üsulla, imtahan yolu ilə aparılır.

Dünən Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə 2020-2021-ci tədris ili üzrə liseyə qəbul imtahanı keçirilib. İmtahanda mayın 7-dən 29-dək aparılmış sənəd qəbulunda qeydiyyatdan keçmiş ümumtəhsil məktəblərinin IV sinfini bitirən 230 qız şagirdi iştirak edib. Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 30, ingilis dili fənni üzrə isə 10 olmaqla, ümumilikdə, 70 sual təqdim edilib. Sualları cavablandırmaq üçün 150 dəqiqə vaxt verilib.

Ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul ediləcək və onlar V sinifdən Naxçıvan Qızlar Liseyində təhsil alacaqlar.

Qeyd edək ki, imtahanın təşkili və gedişi zamanı karantin rejiminin tələblərinə ciddi riayət olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Universitet tələbəsi onlayn rəsm müsabiqəsinin qalibi olub

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən keçirilən "Milli ornamentlərimiz rəsm əsərlərində" adlı rəsm müsabiqəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Təsviri incəsənət ixtisasının I kurs tələbəsi Türkan Əsədova 18-29 yaş kateqoriyası üzrə qalib olub.

Qeyd edək ki, onlayn müsabiqəyə, ümumilikdə, 93 uşaq, yeniyetmə və gəncin 148 rəsm əsəri təqdim olunub. Müsabiqəyə 7-12 yaş kateqoriyası üzrə 31 nəfər 45, 13-17 yaş kateqoriyası üzrə 50 nəfər 82, 18-29 yaş kateqoriyası üzrə 12 nəfər 21 rəsm əsəri təqdim edib. Bakı məktəblilərinin də qatıldığı müsabiqədə yaradıcılıq nümunələrini Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən müəyyən edilmiş münsiflər heyəti qiymətləndirib. Rəsm əsərləri qiymətləndirilən zaman müəlliflərin müxtəlif yaş qrupları üzrə düzgün kompozisiya, rəng seçimi və ideyaları əsas götürülüb, müsabiqəyə təqdim olunan işlərin bədii dəyəri nəzərə alınıb.

**Səadət ƏLİYEVA**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Azərbaycan Respublikası Mülki Məcəlləsinə əsasən özbaşına tikinti aparmış şəxs həmin tikintiyə mülkiyyət hüququ əldə edirmi?***

***Cavab:*** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 180.2-ci maddəsinə görə, özbaşına tikinti aparmış şəxs həmin tikintiyə mülkiyyət hüququ əldə etmir. Onun tikintiyə dair sərəncam vermək – onu satmaq, bağışlamaq, icarəyə vermək, digər əqdlər bağlamaq ixtiyarı yoxdur. Özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən o şəxs üçün tanına bilər ki, tikinti aparılmış torpaq sahəsi onun mülkiyyətində olsun. Əgər tikintinin saxlanması digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozur və ya fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradırsa, göstərilən şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ tanına bilməz.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# Stolüstü tennis üzrə muxtar respublika birinciliyi başa çatıb

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə stolüstü tennis üzrə gənc oğlan və qızlar arasında muxtar respublika birinciliyi keçirilib.*





Sahil Parkında təşkil olunan birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirib ki, son illər muxtar respublikanın şəhər və rayonlarında gənclərin idmana cəlbi istiqamətində mühüm işlər görülür, yeni idman obyektləri tikilərək onların ixtiyarına verilir. Bunlardan biri də Sahil Parkında yaradılan tennis kortudur. Muxtar respublika birinciliyinin də məhz burada təşkil olunması yaradılan müasir infrastruktur və şəraitin nəticəsidir.

İştirakçılar yarışın qaydaları haqqında məlumatlandırıldıqdan sonra birinciliyə start verilib. 50-yə yaxın gənc oğlan və qızın mübarizə apardığı birincilik olimpiya sistemi üzrə təşkil olunub.

Qızların mübarizəsində Duyğu Əliyeva bütün rəqiblərinə qalib gələrək birinciliyin baş mükafatını qazanıb. Xurşud Mahmudova ikinci, Alsu Məmmədli isə üçüncü olublar.

Oğlanlar arasında yarışda Babək Sobhanian hamıdan güclü olub. Digər iki pillədə isə Əkrəm Rəhimli və Məhəmməd Məmmədli qərarlaşıblar.

Sonda qalib idmançılar diplom və hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, bu gün kort tennisi üzrə muxtar respublika birinciliyinə də start veriləcək.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 433